Unudulmaz tarix

Ulu yaradan bizə ürəyimiz istəyən qədər sevincli günlər də bəxş etmişdir. Bir əsrdə iki dəfə dövlət müstəqilliyimizə qovuşmağımız da sevincli tarix idi, bərpa etdiyimiz dövlətçiliyin ikinci dəfə əldən getməsinin qarşısını ala biləcək liderin siyasi hakimiyyətə qayıtması da. Xalqın xilaskarının siyasi kursunu uğurla davam etdirəcək varisin ərsəyə gəlməsi də milli xoşbəxtliyimiz idi, son iki əsrdə daim gözlədiyimiz şanlı qələbəyə qovuşmağımız da. Qürurla qeyd edirik ki, ötən ilin dekabrında bu sıraya tariximizin əlamətdar hadisələrindən biri olan Zəfər paradını keçirməyimiz yazıldı.

Zəfər paradının iştirakçıları “Xalq qəzeti” redaksiyasında

... 1975-ci ildə – faşist Almaniyası üzərindəki qələbənin 30 illiyi ərəfəsində “Kommunist” qəzetində (indiki “Xalq qəzeti”) “Kreml qarşısındakı meydanda ilk Qələbə paradının iştirakçıları redaksiyamızda” sərlövhəli məqalə verilmişdi. Redaksiyamızın dünənki qonaqlarını qarşılayanda “Tarix təkrar olunur”, deyən aqillərin həmin ifadəsini xatırladıq. Çünki redaksiyamızın divarları arasında 45 il əvvəl keçirilmiş görüşlərə də tarixi paradın iştirakçıları gəlmişdilər, bu il dekabrın 9-da keçirilən görüşə də. Fərq onda idi ki, budəfəki qonaqlarımız müstəqil Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün apardığımız Vətən müharibəsində qazandığımız qələbədən sonra keçirdiyimiz Zəfər paradının iştirakçıları idi.

“Xalq qəzeti”nin baş redaktoru Həsən Həsənovun təklifi ilə şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi.

Sonra Zəfər paradının aparıcısı və ssenari müəllifi, polkovnik **Abdulla Qurbani** həmin sevincli günlə bağlı təəssüratlarını bildirdi. Belə bir tədbirin təşkilinə görə, “Xalq qəzeti”nin rəhbərliyinə və kollektivinə Müdafiə Nazirliyinin rəhbərliyi və Azərbaycan Ordusunun əsgər və zabitləri adından minnətdarlığını bildirən A.Qurbani dedi:

– Bəri başdan deyim ki, Müdafiə Nazirliyinin rəhbərliyi qəzetin əməkdaşlarını bir neçə gündən sonra Azərbaycan əsgəri ilə keçiriləcək görüşə dəvət edir. Qələbə paradının sevincini heç vaxt unuda bilmərik. Azərbaycanın tarixində çox hadisələr olub. Amma son 200 ildə bu hadisələr içərisində ən möhtəşəmi Zəfər paradının keçirilməsidir. Bu hadisə, bəlkə də, həyatımızın ən xoşbəxt günü, ən xoşbəxt anı idi. Azərbaycan xalqı və Ordusu işğal altında olan torpaqlarımızı müharibə yolu ilə öz gücünə azad etdi. Özü də bu gün “XXI əsrin dron müharibəsi” adlandırılan və dünyanın bir çox hərbi ekspertləri tərəfindən öyrənilən bu döyüş taktikası nəticəsində 44 gün davam edən müharibədə belə bir qələbəyə imza atmaq heç də asan məsələ deyildi.

Bu qələbə Azərbaycan əsgərinin canı-qanı, xalqımızın birliyi, respublikamızda yaşayan bütün millətlərin nümayəndələrinin iştirakı hesabına qazanıldı. Bu qələbədə ölkəmizin iqtisadi qüdrəti də mühüm rol oynadı. Ölkə rəhbərinin doğru, dürüst, uzaqgörən siyasəti, hücum diplomatiyası bu zəfərin qazanılmasında xüsusi qeyd edilməli amillərdəndir. Bütün xalq, millət, ordu bir yumruq kimi birləşdi və “dəmir yumruq” düşmənin başını əzdi. Bu qələbəni dünyaya nümayiş etdirən isə Zəfər paradı oldu. Hərbi paradların keçirilməsi dünya praktikasında da mövcuddur. Bu paradlarda dövlət nəinki öz xalqına, eləcə də, dostlarına, düşmənlərinə və dünyaya nəyə qadir olduğunu nümayiş etdirir.

Zəfər paradında 3 mindən çox şəxsi heyətimiz, 150-dək hərbi texnikamız, silahlanmaya yeni qəbul edilən hərbi texnikalar, raket-artilleriya qurğuları, zenit-raket kompleksləri, hava hücumundan müdafiə sistemləri, eləcə də, dəniz qüvvələrimiz, hərbi gəmilərimiz nümayiş etdirildi. Bu parad dünya ictimaiyyəti tərəfindən maraqla izlənildi. Bir il bundan qabaq dünyanın gözü Azərbaycanda idi və Azadlıq meydanındakı Zəfər paradını izləyirdi. Paradı möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və fəxri qonaq qismində dəvət olunmuş qardaş Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan qəbul etdilər. Paradda, həmçinin tanınmış yerli ictimai-siyasi xadimlər, o cümlədən, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusların nümayəndələri qonaq qismində iştirak etdilər.

Ümumiyyətlə, bu parad dostlarımızı sevindirdi və düşmənlərimizi xar etdi. Zəfər paradından əvvəl də Azadlıq meydanında iki parad keçirimişdi: Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının ildönümü və Bakının işğaldan azad olunmasının 100 illiyinə həsr olunmuş paradlar. Möhtərəm Prezidentimiz

paradda çıxış edərkən dedi ki, bu paradda 2016-cı il Aprel döyüşləri və 2018-cil il Günnüt döyüşləri zamanı azad olunmuş ərazilərə sancılmış, həmçinin bu döyüşlərdə iştirak etmiş hərbi hissələrin döyüş bayraqları gətirilərək nümayiş etdiriləcək. Dövlətimizin başçısı böyük inam və qətiyyətlə bildirdi ki, gün gələcək, bu gün işğal altında olan torpaqlar da azad ediləcək və orada dalğalanan bayrağımız Zəfər paradında nümayiş etdiriləcək. Bu reallaşdı. Həmin bayraq “Azadlıq” meydanında keçirilən Zəfər

paradında nümayiş etdirlidi. Bütün dünya bunun şahidi oldu.

Bu vaxta qədər ölkəmizdə keçirilmiş altı paradın ssenari müəllifi və aparıcısı olmuşam. Zəfər paradının aparıcısı və ssenari müəllifi olmaq şərəfi ömrümə əbədi həkk olundu. Mən hələ də həmin günün sevinci ilə yaşayıram. Zəfər paradının tribunasında olmaq mənim üçün ən şərəfli gündür. İnanıram ki, həmin paradı seyr edənlər mənim qədər seviniblər. Çünki, bu, Zəfər paradı idi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını, düşməninin məğlubiyyətini, ölkəmizin qalibiyyətini dünyaya nümayiş etdirən parad idi.

Parada ilk olaraq Azərbaycanın Dövlət Bayrağı gətirildi. Sonra qoşun növlərinin bayraqları, Şuşaya sancılan dövlət bayrağı, arxasınca isə qələbənin qazanılmasında xidmətləri olan 20 hərbi hissənin döyüş bayraqları gətirildi.

Zəfər paradına Azərbaycan Silahlı Qüvvələrinin general-polkovniki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, Azərbaycan Müdafiə nazirinin birinci müavini Kərim Vəliyev komandanlıq edirdi.

Abdulla Qurbani sonra redaksiyadakı görüşdə iştirak edən hərbçiləri təqdim etdi: Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrinin rəisi, Əməkdar incəsənət xadimi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dosenti, “Qələbə” marşının müəllifi, polkovnik-leytenant Rüfət Axundzadə, Fəxri qarovulun rəisi, tabor komandiri, mayor Samiq Məmmədov, bölük komandiri, kapitan Kərim Abbasov, (o həm də İkinci Qarabağ müharibəsinin iştirakçısıdır), Azərbaycan Ali Hərbi Məktəbində taqım komandiri, baş leytenant Mir Kazım Məmmədov və Heydər Əliyev adına Ali Hərbi Məktəbin IV kurs müdavimi Seymur Rüstəmli.

Sonra Rüfət Axundzadənin yazdığı “Qələbə” Marşının diski və notu “Xalq qəzeti” nin kitabxanasına hədiyyə edildi.

“Xalq qəzeti” nin baş redakroru Həsən Həsənov dəvəti

qəbul edib tədbirə gələn hərbçilərə minnətdarlığını bildirərək dedi:

– Ötən il bir-birindən yaddaqalan və unudulmaz günlərin həm iştirakçısı, həm də şahidi olduq. Torpaqlarımızı işğaldan azad etdik və bu gün də bu şərəfli günün sevinci ilə yaşayır və qürur duyuruq. Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu düşməni darmadağın etdi. 30 illik işğal dövründə Ermənistan ordusunun qurduğu, yaratdığı istehkamlar yerlə-yeksan edildi. Siz hərbçilər Vətən müharibəsinin qəhrəman, cəsur iştirakçılarısınız. Düşmənə elə zərbə vurmusunuz ki, onlar başını qaldırmağa bir daha cəsarət etməz. Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq tarix boyu yaşayacaq və gələcək nəsillər bu qəhrəmanlığı heç zaman unutmayacaqlar. Çünki hərbçilərimiz Vətən müharibəsində qəhrəmanlıq dastanı yazdılar. Adətən, tarixi hadisələrin, nailiyyətin, böyük kəşflərin, qələbənin həqiqi qiymətini vermək üçün zamana ehtiyac duyulur.

Bu qələbəyə tarix özü qiymət verəcək. Amma bu günlərdə həmin tarixi qələbəyə verilən bir qiyməti xatırlatmaq istərdim. Türk əsilli ABŞ vətəndaşı, məşhur alim, kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncər bu yaxınlarda ölkəmizə gəlmişdi. O dedi ki, mən əhd eləmişdim ki, Azərbaycanın işğal altında olan torpaqları, o cümlədən, Şuşa azad olunsun və mən gedib Şuşada namaz qılacağam. Əziz Səncər xöşbəxt adamdır ki, torpaqlarımız azad olundu və o da gedib Şuşada namaz qıldı, arzusuna çatdı. Əziz Səncər səfər zamanı mətbuat konfransında dedi ki, Türkiyənin istiqlal savaşından sonra türk dünyası üçün böyük əhəmiyyət kəsb edən ən möhtəşəm hadisə Azərbaycanın öz torpaqlarını düşməndən azad etməsidir. Nobel mükafatı laureatının bu sözləri bizim Vətən müharibəsindəki zəfərimizə verilən ən yüksək, dəqiq qiymətdir, həqiqətdir.

Azərbaycan Ordusu cəmi 44 gün ərzində qələbə qazandı. Qırx dörd günün hər saatı şanlı tariximizdir. Azərbaycan Ordusu hər gün yeni şəhərləri, qəsəbələri, kəndləri, yüksəklikləri azad edirdi. Tarixi ədalət bərpa olundu və biz qalib gəldik. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusu döyüş meydanında böyük qələbə qazandı və sübut etdi ki, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Nəhayət, səbirsizliklə gözlədiyimiz gün yetişdi. Qəhrəman əsgər və zabitlərimiz Şuşanı düşməndən azad etdilər. Şuşanın düşməndən azad edilməsi düşməni diz çökdürdü. Noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşinyan üçtərəfli bəyanat imzaladılar. Bu bəyanat, əslində, Ermənistan üçün kapitulyasiya sənədi idi. Kapitulyasiya aktı imzalandıqdan sonra üç rayonumuz bir güllə atılmadan, şəhid vermədən azad edildi.

Ötən il dekabrın 10-da keçirilən Zəfər paradı Azərbaycanı qalib, Ermənistanı isə məğlub ölkə kimi dünyaya tanıtdı. Bugünkü tədbirimizin də əsas məqsədi budur ki, Zəfər paradı haqqında təəssüratlarınızı dinləyək, buna qədər keçdiyimiz çətin və şərəfli günlərimizi bir daha xatırlayaq. Bir daha qeyd edim ki, Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsindəki tarixi qələbəsinə həsr olunmuş möhtəşəm Zəfər paradı rəşadərli ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. Bu paradda həm dünya ictimaiyyəti qəhrəman ordumuzun hərbi potensialının şahidi oldu, həm də ölkəmiz beynəlxalq aləmə mesajını verdi.

Bu parad bir daha təsdiqlədi ki, ölkəmizə qarşı istənilən təhdid və hücumların qarşısını ala biləcək qəhrəman ordumuz var. Azərbaycan Silahlı Qüvvələri düşmən qoşunlarını darmadağın edən, ərazi bütövlüyümüzü təmin edən müzəffər ordu kimi paradda iştirak etdi. Bunun böyük tarixi əhəmiyyəti var. İndiyə qədər Azərbaycanda keçirilən paradlarla, bu gün keçirilən paradın ən böyük fərqi də bundadır.

Qəhrəman ordumuzun Vətən müharibəsində əldə etdiyi tarixi qələbə münasibətilə keçirilən bu Zəfər paradı Azərbaycan xalqının, dövlətinin və ordumuzun qələbə salnaməsi kimi yaddaşlarda əbədi qalacaq.

Söz ilk olaraq polovnik-leytenant, Zəfər paradında iştirak edən hərbi orkestrin dirijoru Rüfət Axundzadəyə verildi. Onun üzündəki təbəssüm və səmimilik Vətənə və xalqımıza məhəbbətin təcəssümü idi. Bir haşiyə çıxaraq qeyd edək ki, Rüfət Axundzadə hərbi orkestrin yaradıcısı, Azərbaycan Respublikası Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi Hərbi Orkestr Xidmətinin rəisi, Xalq artisti, general-mayor Yusif Axundzadənin oğludur.

Rüfət Axundzadə bildirdi ki, Zəfər paradına dirijorluğun keçirməyin ona həvalə olunduğunu öyrənəndə özündə indiyə qədər heç vaxt hiss etmədiyi məsuliyyət yaranıb: Mən çox şadam ki, Zəfər paradında orkestri idarə etmişəm. Bizim heyətdə 200 nəfərə yaxın musiqiçi yer alırdı. Hər birimizdə böyük fəxr-fəxarət, qürur və məsuliyyət var idi.

Bu məqamda polkovnik Abdulla Qurbani bildirdi ki, birləşmiş orkestrlərdən təşkil edilmiş bu heyət iki ölkə prezidentinin tribunaya çıxışı zamanı bizim böyük sənətkarımız Yusif Axundzadənin “Azərbaycan fanfarası”nı ifa etdilər: Onlar daha sonra hər iki ölkənin dövlət himnlərini səsləndirdilər.

R.Axundzadə bildirdi:

– Həmin paradın gedişində biz Azərbaycan klassiklərini ifa edirdik. Türkiyədən gələn şəxsi heyətə və ali qonaqlara jest olaraq Türkiyə marşlarını da əzbərləmişdik.

Bildiyiniz kimi, Türkiyə mətbuatı da bu paradı geniş təbliğ etdi. Qardaşlarımız üçün ən əlamətdar hadisələrdən biri də Azadlıq meydanında “Mehtər marşı”nın səslənməsi idi. Hətta həmin marş səslənən zaman Türkiyə Cümhuriyyətinin Müdafiə naziri Hulusi Akar ayağa qalxaraq həmin anları lentə alırdı.

Bir yaddaqalan hadisəni də sizinlə bölüşmək istərdim. Belə ki, parada hazırlıq mərhələsində məşq zamanı bir türk zabit mənə yaxınlaşaraq “Sumqayıt marşı”nı ifa etməyimizi istədi. Bundan əlavə, biz “Sələmiyə marşı”nı da ifa etdik.

A.Qurbani:

– Rüfət Axundzadə paraddan bir neçə gün öncə yeni hərbi marş yazdı. Əlbəttə, atasının məsləhəti ilə. Yusif Axundzadə belə bir işi ona həvalə edərək həm də bildirdi ki, bu qələbə gəncliyimizin, gələcəyimizin qələbəsidir.

R.Axundzadə:

– Bu mənim çoxdankı arzum idi. Keçirdiyim hissləri sözlə ifadə edib, qarşıdakı insanlara çatdırmaq mənim üçün çox çətindir. İnandırım sizi mən bir neçə gün sonra dərk etdim ki, Zəfər paradında hərbi orkestri idarə etmişəm. Bu, mənim üçün böyük qürur hissi idi. Hərbi musiqilər hər zaman əsgərimizi döyüşə daha çox həvəsləndirir. Buna görə də, düşünürəm ki, hərbi marşların döyüş əzminin artmasında xüsusi rolu var.

Rüfət Axundzadə keçirdiyi həyəcanını zarafatla ifadə edərək bildirdi ki, döyüşdə iştirak etmək müsahibə verməkdən asandır.

Daha sonra söz tabor komandiri, Fəxri qaravulun rəisi, mayor **Samiq Məmmədova** verildi. O, əsasən hərbi parada hazırlıq mərhələsindən danışdı. Qeyd etdi ki, indiyə qədər bir çox paradda iştirak edib. Lakin heç vaxt hazırlıq müddəti bu qədər qısa olmayıb.

– Paradlara hazırlıq, adətən, iki, üç ay olur. Lakin bu dəfə bizə təxminən, iki həftə vaxt verilmişdi. Mən əsasən əsgərlərimizin hazırlıq mərhələsinə göstərdiyi xüsusi həvəsdən danışmaq istəyirəm. Bizim paradlar zamanı ehtiyat əsgər və zabitlərimiz olur. Əgər ehtiyac yaranarsa onlardan istifadə olunur. Bu parada hazırlıq zamanı bizim heyət üzvləri çalışırdılar ki, ehtiyata düşməsin və paradda iştirak etsinlər.

A.Qurbani:

– Samiq həyatında iki dəfə bu hissi yaşayıb. Birincisi, Moskvada II Dünya müharibəsindəki qələbənin 75 illiyinə həsr edilən parad zamanı Qızıl meydanda Azərbaycan bayrağını dalğalandırıb. Ondan da böyük qürur hissi isə II Qarabağ savaşından sonra paytaxtımızda təşkil edilən Zəfər paradı zamanı Azərbaycanın Dövlər bayrağını Azadlıq meydanına gətirməsi olub.

S.Məmmədov:

– Ümumiyyətlə, qalib ordunun zabiti kimi Zəfər paradında Ali Baş Komandanın önündən keçmək həyatımın ən şərəfli anlarından biri idi. Qələbə paradı bizim üçün indiyə qədərki bütün paradlardan çox fərqlənirdi. Bu, bizim nəslin,

bizim dövlətimizin qələbəsi idi.

Bölük komandiri, kapitan **Kərəm Abbasov** da Qələbə paradından danışarkən qeyd etdi ki, keçirdiyi hissləri adi cümlələrlə ifadə etmək mümkünsüzdür.

– Mən bir çox paradlarda, o cümlədən, 2018-ci ildə paradda iştirak etmişəm. Həmin paradda Dövlət Bayrağını mən aparmışam. 2019-cu ildə Pakistan İslam Respublikasında keçirilən paradda heyətin rəhbəri olmuşam. 2020-ci

ildə keçirilən Moskva paradında da Dövlət bayrağını aparmışam. Daha sonra 2020-ci ildə keçirilən Zəfər paradında da iştirak etmişəm. Bu paradı xüsusi qeyd etmək istəyirəm. Çünki biz hər zaman paradlarda iştirak edərkən, bu günün, həmin bu Qələbə paradının arzusunda, həsrətində olmuşuq. Torpaqlarımızın işğaldan azad edilməsini, hücum əmrini gözləmişik. Belə deyim, bu parad bizim xayallarımızda qurduğumuz, təsəvvür etməyə çalışdığımız parad idi. Bütün bunlar mənim üçün qürurverici hadisələrdir. Dövlətimi təmsil etdiyimə görə fəxr edirəm. Əlbəttə, biz daim etimadları doğrultmağa, verilən tapşırıqları yerinə yetirməyə çalışırıq.

Daha sonra Vətən müharibəsinin iştirakçısı, Azərbaycan Ali Hərbi Məktəbində tağım komandiri, vəzifəsində xidmət edən, baş leytenant **Mir Kazım Məmmədov** müharibə və Zəfər paradı ilə bağlı təəssüratlarını bölüşdü.

– Qalib ordunun zabiti olmaq çox qürurverici hissdir. Xalqımızın 30 illik həsrətinə son qoyan belə bir qələbədə az da olsa payımızın olduğunu düşünəndə böyük fəxarət hissi yaşayıram. Biz qələbəyə Azərbaycan xalqı olaraq nail olmuşuq. Müharibədən sonrakı Qələbə paradı isə düşmənə növbəti göz dağı idi. Doğrudur, mən bu paradın iştirakçısı olmamışam. Ona görə ki, həmin vaxt mən Qubadlı – Zəngilan istiqamətində xidmətdə idim. Təsəvvür edin, müharibədən sonrakı dövrdə, cəbhə bölgəsində yaratmağa çalışdığımız imkanlarla, çətin şəraitdə də olsa paradı izləyə bildik. Yəni, orada – işğaldan azad edilmiş torpaqlarda bu paradı izləmək bizim üçün çox sevindirici idi.

Düşməni ən çox yandırıb-yaxan da məhz bu parad və paradda nümayiş etdirilən hərbi qənimətlər oldu. Hətta, onlar bununla bağlı Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edərək tələb ediblər ki, Hərbi Qənimətlər Parkı ləğv edilsin. Məğlubiyyət elə şeydir ki, heç kim bununla barışmaq istəmir. Azərbaycan Ordusu isə erməniləri məğlubiyyətlə barışmağa məcbur etdi. Onlar uzun müddət çalışdılar ki, həmin əraziləri öz torpaqları kimi qələmə versinlər, tanıtsınlar. Lakin, cənab Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət nəticəsində bu istəklərinə nail ola bilmədilər. Belə düşünün ki, onlar hər dəfə sosial şəbəkələrdə, televiziyada və müxtəlif xəbər portallarında bu barədə video və ya şəkillər gördükləri zaman məğlubiyyətin acısını təkrar-təkrar yaşayırlar. Bu səbəbdən, paradda nümayiş etdirilən qənimətlər, eləcə də Hərbi Qənimətlər Parkı düşmən

üçün məğlubiyyətin özü qədər ağırdır. Bu, həm erməni xalqı, həm də Azərbaycan Ordusu tərəfindən darmadağın edilmiş Ermənistan silahlı qüvvələri üçün məyusedici haldır. Düşünürəm ki, onlar bu məğlubiyyəti bir gün yox, bir ömür yaşayacaqlar.

Əlbəttə, həm müharibənin iştirakçısı, həm də qalib ordunun zabiti kimi, mən də bu paradda iştirak etmək istərdim. Nəinki mənim, son nəfərinə kimi bütün Azərbaycan xalqının qəlbi həmin gün Azadlıq meydanında döyünürdü. Ona görə də, əminliklə deyə bilərəm ki, fiziki olaraq olmasa da, bütün xalqımız həmin gün ruhən parad iştirakçılarının, qalib ordumuzun yanında idi.

Heydər Əliyev adına

Azərbaycan Ali Hərbi Məktəbinin IV kurs müdavimi **Seymur Rüstəmli** də həmsöhbətimiz oldu:

– Zəfər paradının iştirakçısı olmaq mənim üçün böyük qürur idi. Vətən müharibəsi başlananda mən 3-cü kurs tələbəsi idim. Həmin vaxt bizim ali məktəbin IV kurs tələbələrinə vaxtından əvvəl kiçik leytenant rütbəsi verərək, döyüşə göndərdilər. Biz isə Bakıda öz xidməti vəzifələrimizi icra etdik.

Vətən müharibəsi bir daha bütün dünyaya sübut etdi ki, ermənilər qorxaq millətdir. onların döyüş bölgəsində qoyub qaçdığı hərbi texnikanın Zəfər paradında nümayiş etdirilməsi isə bizim əsgər və zabitlərimiz üçün qürurverici hadisə idi. Biz bu paradla həm də ordumuzun gücünü bütün dünyaya göstərdik.

Əlavə olaraq, onu da qeyd etmək istəyirəm ki, mənim əmim də 1993-cü ildə – I Qarabağ müharibəsində Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olub. Vətən müharibəsində əldə olunan zəfərlə biz həm də şəhidlərimizin qisasını almışıq.

Beləliklə, Zəfər paradının birinci ildönümü biz qələm sahibləri üçün ikiqat bayram oldu. Çünki həm tarixi təntənəni növbəti dəfə yada saldıq, həm də millətimizə üzağlığı gətirmiş insanların bir qrupu ilə keçirilən tədbirə evsahibliyi etdik. Bu, həqiqtən bizim üçün xöşbəxtlikdir. Evimizə, iş yerimizə, şəhərimizə və bütövlükdə, ölkəmizə sabitlik, əmin-amanlıq gətirmiş insanları qəbul edib onlarla həmsöhbət olmaq, sözün həqiqi mənasında, bizim yaradıcı qismətimiz oldu. Belə bir gün bizin nəsibimiz oldu. Ordumuza daha böyük uğurlar, xalqımıza isə əbədi əmin-amanlıq arzusu ilə:

İttifaq MİRZƏBƏYLİ,
Əliqismət BƏDƏLOV,
İmran ƏLİYEV,
Elşən AĞALAROV (foto),
“Xalq qəzeti”